UOT 94
https://doi.org/10.59849/2710-0820.2024.1.128

**Ülkər Əliyeva**
*Akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu.*
*t.ü.f.d, dosent*
*Azərbaycan*
*aliyevaulker8282@gmail.com*

# XXI ƏSRDƏ ÇİN-İRAN MÜNASİBƏTLƏRİNDƏ ZİDDİYYƏTLƏR

***Açar sözlər:*** *Çin-İran əməkdaşlığı, Çinin İran körfəzində siyasəti, Çabahar limanı, ŞƏT, Hərtərəfli strateji əməkdaşlıq haqqında saziş*

## Giriş

Çin və İran arasında münasibətlər dərin köklərə və özünəməxsus xüsusiyyətlərə malikdir. Bu münasibətlər tarixi təcrübəyə, mövcud beynəlxalq və regional vəziyyətə dair ortaq perspektivlərə, maraqların uzlaşmasına və eyni zamanda narazılıqlara əsaslanır. Son onilliklərdə Çin və İran arasında genişlənən əlaqələr Çinin Yaxın Şərq dövlətləri ilə inkişaf edən münasibətlərinin bir hissəsini təşkil edir. ABŞ-ın xarici siyasəti Çin və İran arasında münasibətlərin daha da dərinləşməsinə səbəb olmuşdur. Pekin İranı ABŞ-ın Yaxın Şərqdəki təsirinin azaldılmasında mümkün tərəfdaş kimi görür, İran rejimi isə Çinə ABŞ-a qarşı potensial müttəfiq kimi baxır. Bundan əlavə, Çinin artan enerji ehtiyacı onun neft və qazla zəngin olan İrana marağını artırmışdır. Çinlə münasibətlər İran rejimini beynəlxalq sanksiyaların təsirindən qorumuşdur. Onların tərəfdaşlığı qarşılıqlı faydalı olsa da, bu sahədə bir sıra ziddiyyətlər mövcuddur. Tədqiqat işində bu kontekstdə iki ölkə arasında münasibətlərdəki məhdudiyyətlərdən yaranan ziddiyyətlər araşdırılmış və bu məhdudiyyətlərin səbəbləri təhlil edilmişdir.

Ümumiyyətlə, İran cəmiyyətində Çinin İran siyasətinə fərqli yanaşmalar mövcuddur. İki ölkə arasında əlaqələrin səviyyəsindən narazı olanlar bu tərəfdaşlığın İranı Çindən tamamilə asılı ölkəyə çevirəcəyindən ehtiyat edirlər. Bu yanaşmaya görə, Çin İrandan fərqli olaraq, bu ölkəyə mühüm müttəfiq kimi yox, regionda mövqelərini gücləndirmək və iqtisadi maraqlarını təmin etmək üçün faydalı tərəfdaşlardan biri kimi baxır.

İranın əsas iqtisadi məqsədlərindən biri beynəlxalq investisiya kapitalı və qabaqcıl texnologiyalar əldə etməkdir. Bundan əlavə, İran Çinin xarici siyasi əlaqələrində onun maraqlarını da nəzərə almasını istəyir. Çinin İranla əməkdaşlığı əsasən ticarətə yönəlmişdir və o, hərtərəfli strateji əməkdaşlıq qurmağa hazır görünən İrandan fərqli olaraq, aralarında iqtisadi münasibətlərə siyasi-strateji əlaqələrə nisbətən daha çox önəm verir (10, s.16).

İranın Çinə böyük və artan həcmdə xam neft ixracı Çin-İran enerji əməkdaşlığının təməl daşını təşkil edir, lakin Çinin investisiyaları hazırda İranın investisiya ehtiyaclarına görə cüzidir (11, s.410). İki ölkə arasında iqtisadi əlaqələrin tədqiqi göstərir ki, Çin və ABŞ arasındakı rəqabətə baxmayaraq, Çin-İran münasibətlərinin səviyyəsi Çin-ABŞ münasibətləri ilə müqayisədə aşağıdır.

İranlı ekspertlər və analitiklərin Çinin fəaliyyətinə verdiyi qiymət, eləcə də rəsmilərin Çin-İran münasibətləri ilə bağlı fikirləri İranda Çinlə əlaqələrə münasibət və fikir ayrılıqlarının səbəbləri haqqında təsəvvür yaradır. İranın Çinlə əməkdaşlığında ziddiyyətli məqamlara nəzər salaq.

1) İranda cəmiyyətdə, ziyalılar arasında “Çinlə əməkdaşlığın yalnız Çinə faydalı olduğu yoxsa hər iki tərəf üçün əhəmiyyət daşıdığı” mövzusunda fikir ayrılıqları mövcuddur. Müxtəlif dövrlərdə İran hökumətlərinin siyasətini tənqid edən qüvvələr Çinlə əməkdaşlığın ölkəyə rəsmi bəyanatlarda səsləndiyi qədər faydalı olmadığını iddia edir və müxtəlif misallar göstərərək təsdiqləməyə çalışırlar. Bu cür tənqidi yanaşmalardan biri ondan ibarətdir ki, İranın ən

mühüm ticarət tərəfdaşı olan Çin ona "xəyanət edir" və çətin vəziyyətindən istifadə etməyə çalışır. Tehran Universitetinin Asiya Araşdırmalar Mərkəzinin direktoru Hamed Vəfai iddia edir ki, Çin bu siyasətini "rəqibə qarşı düşmənçilikdən uzaq" və ya "zorakılıqdan uzaq" diplomatiya prinsipi əsasında həyata keçirir. Onun fikrincə, Çin Rusiyanın Ukrayna və ABŞ ilə münasibətlərində gərginlikdən faydalanır. Bundan əlavə, o, ABŞ-ın Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalara görə Çinin Rusiya ilə bir neçə yüz milyardlıq müqavilə bağladığını vurğulayır. Ekspert hesab edir ki, İrana qarşı sanksiyalar da Çinə əhəmiyyətli maliyyə üstünlükləri qazandırmışdır (14). Digər İranlı tədqiqatçı, Əllamə Təbatəbayi Universitetinin əməkdaşı Əli Adəmi də İranın xarici siyasət aparatının oxlarının hədəfə dəymədiyini və özünə strateji müttəfiq əldə edə bilmədiyini qeyd edir. O, İranın müttəfiq olaraq görmək istədiyi dövlətlərin onunla sadəcə öz iqtisadi maraqları çərçivəsində əməkdaşlıq etdiyini və İranın xarici siyasət xəttini müsbət qarşılamadıqlarını nəzərə çatdırır (13, s.110).

Məsələyə Çinin xarici siyasət məqsədləri prizmasından baxdıqda, Çin liderlərinin dəfələrlə vurğuladıqları "Çinin daxili və xarici siyasətinin qarşısında duran əsas məqsəd ölkənin iqtisadi inkişafını təmin etməkdir" ideyası nəzərə alınmalıdır. Başqa sözlə, Çin istənilən dövlətlə, o cümlədən İranla əməkdaşlıqda yalnız Çinin iqtisadi maraqlarını üstün tutur.

2) İranda Çinin İran körfəzi bölgəsindəki siyasəti də tənqid hədəfidir. Cəmiyyətdə iki ölkə arasında münasibətlərə dair narazılıqlar mövcud olsa da, rəsmi görüşlərdə İran və Çin arasında sıx və mükəmməl əməkdaşlıq münasibətləri nümayiş olunur. Buna baxmayaraq, Rusiyalı ekspert İ.Pankratenkonun da vurğuladığı kimi, bir sıra məsələlərdə Tehran Çinin fəaliyyətindən narazılığını gizlədə bilmir. Bu məsələlərə misal olaraq, İranın Qərb və onun regional müttəfiqləri olan Səudiyyə Ərəbistanı, İsrail ilə konflikti şəraitində Çinin qəti olaraq İranın tərəfində durmaq istəməməsini qeyd etmək olar (5).

Belə ki, 2022-ci ilin sonunda Körfəz Əməkdaşlıq Şurasının 43-cü sessiyasında Çin və Səudiyyə Ərəbistanının körfəzdəki üç adanın mübahisəli ərazi olduğuna dair birgə bəyanatı İranda narazılıq doğurdu (14) və Çinin İranın etibarlı müttəfiqi olmadığı fikrinin tərəfdarlarını haqlı çıxardı.

Qeyd edək ki, Hörmüz boğazında yerləşən bu adaları 1971-ci ildə ingilislər indi Birləşmiş Ərəb Əmirliklərinə aid olan bölgəni tərk etdikdən sonra İran ələ keçirmişdi. Lakin hazırda Əbu-Dabi həmin adalara iddia edir.

Təbii ki, Pekinin bu mübahisədə iştirakı İranın etirazına səbəb oldu. İran parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin keçmiş sədri Heşmetullah Fəlahətpişe İran İslam Respublikası rəsmilərinin Çinin davranışından təəccüb və kədərləndiklərini bildirdi (14).

Çin və Səudiyyə Ərəbistanı adalarla bağlı birgə bəyanat imzaladıqları zaman İranın Çindəki nümayəndəsi Məhəmməd Keşavərzzadə Pekinə etiraz notası göndərdi. Lakin İrana səfər edən Çin nümayəndəsi İran tərəfi arxayınlaşdıraraq, Çinin İranın ərazi bütövlüyünü təsdiqlədiyini bildirdi. Buna baxmayaraq, artıq İran mətbuatında Çinlə ittifaqın perspektivləri ilə bağlı yazılarda əvvəllər ifadə olunan böyük ümidlər əks olunmurdu (7).

Almaniya Beynəlxalq və Təhlükəsizlik Məsələləri İnstitutunun əməkdaşı Həmidreza Əzizi "Al-Monitor"a (ingilisdilli xəbər saytı) Çinin adalara dair İran və BƏƏ arasında mübahisəyə qatılması ilə bağlı müsahibəsində vurğuladı ki, "Bu, Tehran və Pekin arasında münasibətlərdə strateji tərəfdaşlıqdan bir növ asılı rola doğru dönüş nöqtəsi oldu" (2).

3) Çin və İran əməkdaşlığında ziddiyyətli sahələrdən biri də beynəlxalq nəqliyyat xətləri ilə bağlı layihələrdir. İpək Yolu İqtisadi Kəməri ilə bağlı beynəlxalq layihələrdə iştirak edən İran bu layihələrdən fayda gözləyir. Çin İrana ölkənin nəqliyyat infrastrukturu layihələrinə xərcləyə biləcəyi on milyardlarla dollar kredit ayırmışdır. Onların birgə həyata keçirdiyi layihələr arasında İranda dəmir yolu xətlərinin tikintisi mühüm yer tutur. İki zolaqlı, yüksək sürətli Tehran-Qum-İsfahan və Qum-İsfahan xətləri, eləcə də elektrikləşdirilmiş Tehran-Məşhəd dəmir yolu hər iki ölkənin birgə layihələridir. İran bu xərclənən vəsaitdən fayda əldə etmək və beynəlxalq yükdaşıma layihələrinin aktiv şəkildə həyata keçirilməsini istəyir. Bu baxımdan Çinin İranın Çabahar limanındansa, Pakistanın Qvadar limanına üstünlük verməsi də uzun müddət İranın gündəmində oldu. İranlı ekspert-

lərin fikrincə, bunun səbəbi İrana qarşı sanksiyalar idi. Belə ki, İran qarşılaşdığı məhdudiyyətlərə görə, Çinə istədiyi güzəştləri verə bilmir. Əslində Çini Çabahara investisiya qoymaqdan çəkindirən əsas səbəb İranın limanın tikintisində Hindistanla əməkdaşlığı idi (14). Lakin ABŞ-ın Hindistana təzyiqləri nəticəsində onun geri çəkilməsindən və 2021-ci ildə 25 illik Çin-İran sazişinin bağlanmasından sonra Çabahar limanı Çinin planlarında xüsusi mövqe tutmağa başladı.

4) İran ölkəyə qoyulan Çin investisiyalarının həcminin az olması və Çində iranlı iş adamları üçün şəraitin olmamasından da narazıdır. İranın rəsmi mətbuatı bildirir ki, bu problem İranın Maliyyə Tədbirləri üzrə İşçi Qrupa (FATF) üzv olmaması ilə bağlıdır. Çin İranı yüksək riskli ölkələr siyahısına daxil etdiyindən, Çin bankları FATF tələblərinə cavab verməyən İran bankları ilə əməkdaşlıq etmir və Çindəki iranlılara və ya İran şirkətlərinə xidmət göstərmir (9, s.19).

5) İki ölkə əlaqələrində daha bir ziddiyyətli məqam Çinin Amerikanı narazı salmamaq üçün İranla sıx yaxınlaşmamağa çalışmasıdır. Çinin bu mövqeyi İranın Şanxay Əməkdaşlıq Təşkilatına üzv qəbul edilməməsində özünü göstərirdi. İran hökuməti bu istiqamətdə uzun müddət səy gösərmiş və təşkilatda yalnız müşahidəçi üzv olaraq iştirak etmişdi. Lakin Çinin maraqlarına uyğun zaman gəldikdə, yəni 2021-ci ildə İranın bu təşkilata daimi üzvlüyünə şərait yaradıldı. Nəticədə ölkədə yenə narazılıq və tənqidi fikirlər səsləndi. Bu dəfə narazılıqların səbəbi təşkilata daimi üzvlüyün İranın maraqlarına zidd olması haqqında iddialar idi. Ümumiyyətlə, İranın xarici siyasətinə ölkə daxilində mühafizəkar və reformist yanaşma mövcuddur. Birinci yanaşmaya İbrahim Rəisi və tərəfdarları aiddir. Onların fikrincə, ŞƏT-na üzvlük yeni imkanlar yaradacaq, İranın Asiya iqtisadi infrastrukturuna qoşulmasına səbəb olacaqdır.

Mühafizəkarlardan fərqli olaraq, reformist mövqeyin tərəfdarları Qərbə meyllidir, İranın mövcud problemlərdən çıxış yolunu ABŞ və Qərblə yaxınlaşmaqda görürlər. Bu mövqedən çıxış edən iranlı ekspert Həsən Beheştipur "Etemad" qəzetində nəşr edilmiş məqaləsində bildirir ki, "Şanxay Əməkdaşlıq Təşkilatı daimi üzvləri üçün müxtəlif sahələr - siyasi, iqtisadi, maliyyə, hərbi və təhlükəsizlik üzrə öhdəliklər müəyyən edən hərtərəfli müqavilədir. Onun Nizamnaməsində İranın müstəqilliyinə zidd olan bir neçə məqam var. İran Şanxay Təşkilatının daimi üzvü kimi iki fövqəldövlət - Çin və Rusiyanın himayəsinə keçməli olacaq və bu, İranın müstəqilliyinə ziddir. Qeyd edək ki, İran İslam Respublikasının son 40 ildə xarici siyasətinin əsasını şərq və ya qərbyönlü siyasət deyil, müstəqillik təşkil etmişdir" (12).

İranda Çinlə əlaqələrə daha bir yanaşmaya görə, Çinin Yaxın Şərq və Mərkəzi Asiyada mövcudluğu İran üçün həm imkanlar, həm də problemlər yaratmışdır. Belə ki, "İranın bu bölgələrlə iqtisadi ticarət üçün çoxlu imkanları var və Çinsiz də böyük fayda əldə edə bilər. Çinin bu ölkələrə çoxlu kreditlər verməsi və layihələr təklifi nəticəsində regionda aparıcı iqtisadi gücə çevrilməsi, İslam Respublikasına qarşı sanksiyalar və ideoloji müzakirələr İranın ticarət planları üçün ciddi manelər yaratmışdır" (13).

6) İran-Çin münasibətlərində başqa bir ziddiyyətli məsələ Çinin qərb sərhədlərinin yaxınlığında İran dini təşkilatlarının islami dəyərləri təbliğ etmək cəhdlərinə qarşı kifayət qədər sərt mövqeyidir. İranın keçmiş prezidenti Hatəmi Sintszyandakı müsəlmanlarla problemlərin həllinə "kömək etməyi" təklif edəndə, Çin tərəfi nəzakətlə, lakin qəti şəkildə bu məsələni bir daha qaldırmamağı tövsiyə etdi (5). İranın keçmiş naziri M.Əhmədinejat sosial şəbəkələrdə Çinin uyğurlarla bağlı siyasətini tənqid etmişdir (4). İran parlamentinin keçmiş nümayəndəsi Ə. Motəhəri də Çinin uyğurlarla bağlı siyasətini tənqid edənlər sırasındadır. Lakin səslənən tənqidlər İran hökumətinin rəsmi mövqeyini əks etdirmir. Hətta özünü dünya müsəlmanların müdafəçisi kimi tanıdan İranın uyğurlarla bağlı Çinə etiraz etməməsi qərb mətbuatında vurğulanaraq, bunun Pekinin Tehrana təzyiqi və ölkənin Çinin maliyyəsindən asılılığı ilə əlaqələndirilir (6).

7) 2021-ci ildə hərtərəfli əməkdaşlığa dair 25 illik İran-Çin sazişinin bağlanmasından sonra isə İranda xüsusilə müxalifət və xalqın narazılığı üçün daha bir səbəb ortaya çıxdı: müqavilənin ictimaiyyətə açıqlanmayan bəndləri.

Hələ Si Tszinpinin 2016-cı ildə İran səfəri zamanı 17 ikitərəfli saziş, o cümlədən atom elektrik stansiyalarının tikintisi və İran neftinin uzun müddətə Çinə satışı ilə bağlı sazişlər im-

zalandı. Tərəflər həmçinin, son 25 ildə ticarət-iqtisadi əməkdaşlığın genişlənməsinə dair razılaşma əldə etdilər. O zaman iki ölkə arasında 25 illik və 400 milyardlıq müqavilə bağlanacağı haqqında şayiələrin yayılmasına və hətta İranda rəsmi dairələrdən alındığı iddia edilən məlumatların İran mətbuatına sızmasına baxmayaraq, Çin belə bir müqavilənin müzakirə edildiyini inkar edirdi.

Deyilənləri iranlı ekspert, İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani də təsdiq edirdi. O, "Eurasia. Expert" saytına müsahibəsində Çinin İranla bağlayacağı strateji müqavilədə nəzərdə tutulan 400 milyard dolların 25 il ərzində necə sərf ediləcəyi barədə suala cavabında qeyd etmişdi ki, "25 illik müddət üçün bağlanması nəzərdə tutulmuş bu müqavilə 5 il öncə təkif edilsə də, bu müddət sadəcə təklif olaraq qalmış və irəli addım atılmamışdı" (7). Belə ki, həmin dövrdə Tramp hökuməti Çini sanksiyalarla hədələyirdi. 2018-ci ildə Amerika və Çin münasibətlərində gərginlik o səviyyəyə çatdı ki, mətbuatda tərəflərin fəaliyyəti "ticarət müharibəsi" adlandırıldı. ABŞ-la gərginlikdən daha artıq zərər görməmək üçün Çin İranla yaxınlaşmanı zəiflətmək qərarına gəldi. ANKASAM (Ankara Kriz ve Siyaset Araştırmaları Merkezi) Avrasiya bölməsi rəhbəri Dinmuhammed Ametbekin bu barədə məlumatları diqqəti cəlb edir. O qeyd edirdi ki, "son dövrlərdə baş verən bir çox hadisələr İran-Çin əlaqələrində problemlər yarandığını göstərir. Çin rəsmiləri ABŞ-ın tətbiq etdiyi sanksiyaları tənqid etsələr də, Pekin üçün ABŞ-la ticarət İranla əməkdaşlıqdan daha önəmlidir" (1).

2019-cu ilin may ayının 27-də "The Wall Street Journal" qəzetində yayımlanan xəbərə görə, Çin İrandan neft alışını dayandırmışdı. Dinmuhammed Ametbekin dediyi kimi, bu vəziyyət Çinin İran uğrunda ABŞ-la qarşı-qarşıya gəlməyəcəyini göstərirdi (1).

İranlı ekspert Ə.Süleymaninin sözlərinə görə, "Çin İrana görə ABŞ-la açıq qarşıdurmaya yol verməyəcək. İqtisadi və enerji sahələri əlbəttə ki, istisnadır. Amma bu o demək deyil ki, ABŞ İrana qarşı hücuma keçərsə, Çin ABŞ-la döyüşəcək. Yalnız bəzi beynəlxalq təşkilatlar vasitəsilə iqtisadi yardımı, həmçinin, hərbi sahədə əməkdaşlığı istisna etmirəm. Lakin bundan daha irəli getməyəcək" (3)."

Nəhayət, ABŞ-da hakimiyyət dəyişikliyi və ticarət müharibəsinin qismən zəifləməsi nəticəsində Çin yenidən İranla bağlı planlarına qayıtdı. 2021-ci il, martın 27-də iki ölkə arasında hərtərəfli əməkdaşlıq haqqında müqavilə imzalandı. Lakin bu müqavilə ilə bağlı müxalifət və bir sıra ekspertlər tərəfindən tənqidlər səslənməyə başlandı. Müqavilənin İranın zəifliyindən istifadə edilərək, ölkə və xalqın maraqlarına zidd şərtlərlə imzalandığı iddia edilirdi. Bir çox ekspertlər hələ müqavilə ilə bağlı danışıqlar getdiyi zaman Tehran və Pekin arasındakı münasibətlərin uzun müddət ərzində Çinə İrandan daha çox fayda gətirmiş olduğunu vurğulayırdılar.

Keçmiş prezident Mahmud Əhmədinejad da iyunun sonunda çıxışında xəbərdarlıq etmişdi ki, 25 illik müqavilə ilə bağlı danışıqlar "İran xalqının nəzərindən kənar" aparılır. Sazişin əleyhdarları arasında Əli Motəhəri, İran taxtının keçmiş vəliəhdi Rza Pəhləvi də var (8).

Lakin İranda bəzi dairələr Çinlə münasibətlərin bir çox məqamlarından narazılıq ifadə etsə də, dünyanın fabriki olan Çinlə münasibətlərin İran üçün zəruriliyini ölkədə hamı bilir. Hazırki şəraitdə İran Çinlə münasibətlərdən yararlanmağa məcburdur. İranın Çinlə əlaqələrinin məhdud miqyasına baxmayaraq, bir çoxları İranın bu əlaqələrdən, xüsusən də "Kəmər və Yol" təşəbbüsündən daha çox faydalanacağını iddia edirlər.

**Nəticə**

İranın mövqeyi və enerji resursları Çin üçün vacib olduğundan, o, bu ölkə ilə əməkdaşlıqdan imtina etmək niyyətində deyil. Lakin İrana qarşı sanksiyalar, onun Yaxın Şərqdə yerləşməsi və məhdud imkanları nəzərə alınarsa, çox güman ki, Çin B planını işə salmışdır. Belə ki, Pekin paralel olaraq, həm İran, həm də körfəzdəki digər ölkələr ilə əməkdaşlığı davam etdirir, çünki İrandan fərqli olaraq, digər körfəz ölkələri sanksiyalara məruz qalmır və Çin sərmayəsi üçün sabit bazardır.

Çin İrana etibarlı tərəfdaş və enerji təchizatçısı kimi baxır, çünki əgər Çin və ABŞ arasında münasibətlər pisləşərsə və Körfəz ölkələri Pekin və Vaşinqton arasında seçim etmək məcburiyyətində qalarlarsa, regionun digər ölkələrindən fərqli olaraq, İran Pekini seçəcək. Buna görə də Pekin Tehran və Vaşinqton arasında balanslaşdırılmış siyasəti davam etdirir.

**Ədəbiyyat**

1. Ametbek D. İran-Çin ilişkilerinde son durum / ANKASAM (Ankara Kriz ve Siyaset Araştırmaları Merkezi), 2 Haziran, 2019, https://ankasam.org/iran-cin-iliskilerinde-son-durum/
2. В Иране недовольны китайской политикой, 21 января 2023, https://dzen.ru/a/Y8uqLc2LzEZ6bymc
3. Китай не пойдет на открытое противостояние с США из-за Ирана – иранский эксперт, 05 Августа 2020 г., https://eurasia.expert/kitay-ne-poydet-na-otkrytoe-protivostoyanie-s-ssha-iz-za-irana-iranskiy-ekspert/
4. Куршун М., Кескин О. Экс-президент Ирана обвинил Китай в геноциде уйгуров, 17.03.2021, https://www.aa.com.tr/ru/экс-президент-ирана-обвинил-китай-в-геноциде-уйгуров/2177937
5. Панкратенко И. Почему Китай избегает политики в отношениях с Ираном?, 18 февраля 2015, https://regnum.ru/article/1896865
6. Почему Иран никогда не поднимет вопрос о положении уйгуров в Китае, 21 февраля 2021, https://dzen.ru/a/YDJB3whMw0UkPT5f
7. Средний коридор — спасательный круг для Европы, Al Jazeera, Катар, 06 октября 2022, https://inosmi.ru/20221006/torgovlya-256550552.htmll
8. Esfandiari G. Explainer: Why Are Iranians Angry Over A Long-Term Deal With China?, Radio free Europe, Radio liberty, July 13, 2020, https://www.rferl.org/a/30724344.html
9. Holmquist E., Englund J. China and Iran – an unequal friendship, Swedish Defence Research Agency, Totalförsvarets, 2020, 44 pp.
10. Marketos N.T. “Iran’s geopolitics in the Midst of the U.S.-Russia-China energy security struggle for geostrategic control over Eurasia” // *Central Asia and the Caucasus*, No. 4-5 (58-59), 2009, 20 s.
11. Zhao Hong. “China's Dilemma on Iran: between energy security and a responsible rising power”, Journal of Contemporary China, 2014, Volume 23, Issue 87, pp.408-424
12. شانگهای و معایب مزایا, 2018, iyun, http://irdiplomacy.ir/fa/news/1977140/
13. علی آدمی, راهبرد نگاه به شرق در سیاست خارجی جمهوری اسلامی ایران: دیدگاه ها، زمینه ها و فرصت مطالعات سیاسی بهار ۱۳۸۹ شماره۷، ه، http://ensani.ir/fa/article/260812/-راهبرد-نگاه-به-شرق-در-سیاست-خارجی-جمهوری-اسلامی-ایران-دیدگاه-ها-زمینه-ها-و-فرصت-ها
14. https://www.khabaronline.ir/news/1789828/چرا-روسیه-و-چین-ایران-را-غافلگیر-می-کنند-آیا-از-یک-سیاست-یک-سویه, May 30, 2021, https://www.ccsi.ir/fa/report/24239
15. İRNA (2018) https://www.irna.ir/news/83051548/-روابط-بانکی-ایران-و-چین-قربانی-عدم-عضویت-در-FATF

**Summary**

**Aliyeva Ulker**

**Contradictions in relations between China and Iran in the 21st century**

The article is devoted to the analysis of discontent and reasons for restrictions in relations between the Islamic Republic of Iran and the People's Republic of China in the context of mutually beneficial cooperation between the two countries. Iran, whose economy relies more on cooperation with China due to the restrictions it faces, is not satisfied with the level of this relationship and even fears that this partnership will turn Iran into a country completely dependent on China. Unlike Iran, China views this country not as an important ally, but as a useful partner for strengthening its position in the region and protecting its economic interests. Iranian experts' and analysts'

assessments of China's activities, as well as officials' views on relations with China, provide insight into Iran's overall approach to relations with China. The article analyzes China's attitude towards Iranian policy based on the Iranian press and speeches by officials. The results of the study led to the conclusion that although the contradictions in relations between the two countries are criticized by parts of Iranian society, intellectuals and politicians, this approach is not openly expressed in official circles and the press. There are only a few exceptions in this regard. One of them is China's position on the disputed islands between Iran and the UAE. On this issue, Tehran expressed open objection to China. However, although there are many controversial issues between the two countries, Iran does not officially oppose China's position due to its economic and trade interests.

**Keywords:** *Sino-Iranian cooperation, Chinese policy in the Persian Gulf, Chabahar port, SCO, "Comprehensive strategic partnership" agreement*

## Резюме

**Алиева Улькер**

### Противоречия в отношениях между Китаем и Ираном в XXI веке

Статья посвящена анализу недовольства и причин ограничений в отношениях между Исламской Республикой Иран и Китайской Народной Республикой в контексте взаимовыгодного сотрудничества между двумя странами. Иран, экономика которого больше опирается на сотрудничество с Китаем из-за ограничений, с которыми он сталкивается, не удовлетворен уровнем этих отношений и даже опасается, что это партнерство превратит Иран в страну, полностью зависимую от Китая. В отличие от Ирана, Китай рассматривает эту страну не как важного союзника, а как полезного партнера для укрепления своих позиций в регионе и защиты своих экономических интересов. Оценка иранскими экспертами и аналитиками деятельности Китая, а также взгляды официальных лиц на отношения с Китаем дают представление об общем подходе Ирана к отношениям с Китаем. В статье анализируется отношение к иранской политике Китая на основе иранской прессы и выступлений официальных лиц. Результаты исследования привели к такому выводу, что хотя противоречия в отношениях между двумя странами подвергаются критике со стороны части иранского общества, интеллектуалов и политиков, данный подход не выражается открыто в официальных кругах и прессе. В этом отношении есть лишь несколько исключений. Одним из них является позиция Китая по спорным островам между Ираном и ОАЭ. В этом вопросе Тегеран выразил открытое возражение Китаю. Однако, хотя между двумя странами существует множество противоречивых вопросов, Иран официально не выступает против позиции Китая из-за своих экономических и торговых интересов.

**Ключевые слова:** *китайско-иранское сотрудничество, политика Китая в Персидском заливе, порт Чабахар, ШОС, соглашение о "всеобъемлющем стратегическом партнерстве"*